ÇIXIŞLAR

# 1989-CU İL NOYABRIN 28-DƏ SSRİ ALİ SOVETİNİN SESSİYASINDA ÇIXIŞ

İki ilə yaxındır ki, bütün ölkəmiz, bütün dünya Dağlıq Qarabağda hadisələrini böyük diqqətlə izləyir. Gərginlik azalmaq bilmir, vəziyyət kəskinləşir, qan axır, təkcə körpülər və yollar deyil, iki xalqın birgə yaşayışının çoxəsrlik bünövrəsi də partladılır, ailə, istehsalat, məişət əlaqələri kəsilir və qarşılıqlı düşmənçiliyin, nifrətin amansızlığının düyünü dartılıb bərkiyir.

Son 70 il ərzində indiki Ermənistanın ərazisində, o cümlədən 20-ci ildə onun paytaxtı Yerevanda yaşamış yarım milyon azərbaycanlının orada indi əslində biri də qalmamışdır. Azərbaycanlıların Ermənistandan, həm də ermənilərin Azərbaycandan təbii surətdə dincliklə köçməsi ilə yanaşı, tarix bunun da şahididir ki, 40-cı illərin ikinci yarısında Stalin yüz minlərlə azərbaycanlını Ermənistandan zorla köçürmüş və orada qalmış son 200 min azərbaycanlı keçən il Stalin dövrü uzaq olsa da, eyni dərəcədə amansızlıqla qovulmuşdur. Özü də bütün bu dəhşətli tədbir faciəli zəlzələ zamanı və ya zəlzələdən sonra deyil, nəzərinizə çatdırıram ki, ondan əvvəl görülmüşdür.

Akademik A.D.Saxarova dərin hörmətim var, gəncliyimdə ona pərəstiş etmişəm, durğunluq illərindəki davranışına heyran idim, onu bir növ ədalətin təminatçısı hesab edirdim. Odur ki, DQMV məsələsində Akademik Saxarovun necə ədalətsiz və birtərəfli mövqe tutduğunu görmək mənim üçün ağırdır. Andrey Dmitriyeviç azərbaycanlılardan xahiş edir, özünün burada dediyi kimi onlara hətta "yalvarır" ki, ərazilərinin bir hissəsindən əl çəksinlər. Amma kim və necə yalvarırsa yalvarsın, heç bir respublika, o cümlədən Azərbaycan heç vaxt razı olmaz ki, ərazisinin bir hissəsini kiməsə suvenir versin, bəxşiş etsin. Axı bizim respublikamız suvenir respublikası yox, suveren respublikadır.

# 3 oktyabr 1989-cu ildə SSRİ Ali Sovetindəki çıxışımdan

Bu hədsiz dərəcədə vacib məqamda bir deputat və yazıçı kimi sessiyaya müraciətlə çıxış etməyi borcum sayıram, çünki söhbət bütöv xalqlar üçün həyat əhəmiyyətli məsələlərdən gedir. Xahiş edərdim ki, mənim çıxışım iki səbəbdən televiziya ilə translyasiya edilməsin. Birincisi, adicə sözlərimin kimsə tərəfindən, sadəcə, televiziya auditoriyası üçün nəzərdə tutulmuş kimi qavranılması fikrinin özü mənim üçün ağırdır, ikincisi isə, onların emosiyaların gərginləşdirilməsi, hərəkat proqramı, müəyyən addımlara təhrik və s. kimi qavranılmasını istəməzdim. Çıxışımın yeganə məqsədi Ali Soveti ömrümüzün sonuna qədər bizim vicdanımızın sönməyən ağrısı ola biləcək hərəkətlərdən çəkindirməkdir. Mən adi bir həqiqəti demək üçün müraciət edirəm: dəmir yolu blokadası adlanan problem yalnız iqtisadi deyil, həm də siyasi problemdir və Ali Sovetin qəbul edə biləcəyi tədbirlər yalnız inzibati tədbirlər olmamalıdır. Nazir Konaryov dünən vəziyyəti elə təsvir etməyə çalışırdı ki, guya bu, hansısa Çexov personajlarısayağı hərəkət edən ayrı-ayrı adamların işidir.

Əgər "blokada" termini hərbi leksikadandırsa, onda başqasının torpağını ələ keçirtmək cəhdi də hərbi leksikadandır və qəbul edilə biləcək fövqəladə tədbirlər ən ciddi nəticələr, hətta Tbilisidəkindən də faciəvi nəticələrə gətirib çıxarda bilər. Bu qədər məsul qərarlar qəbul etməzdən öncə, əgər müxtəlif xalqlara münasibətdə, fərqli münasibət yoxdursa, bunu lazımınca dərk etmək lazımdır. Beləliklə, sərhədlərin dəyişdirilməsinin yolverilməzliyi, respublikaların, o cümlədən, Zaqafqaziya respublikalarının ərazi bütövlüyü haqqındakı müddəanı təsdiq etməklə biz həm bu tərəfdən, həm də digər tərəfdən blokada məsələsini aradan qaldırmış olardıq. Digər halda biz nə öz seçicilərimiz, nə də tarix qarşısında bəraət qazana bilmərik.

*Anarın şərhi: Söhbətin nədən getdiyini izah etmək vacibdir. Ermənistana gedən dəmir yolunun blokadası ilə əlaqədar olaraq erməni deputatları və Qalina Starovoytova təkidlə təklif edirdilər ki, Azərbaycanda fövqəladə vəziyyət elan olunsun və hərbi yolla blokada açılsın. Belə olan təqdirdə 1990-cı ilin 19-20 yanvarında olan qanlı hadisələr üç ay yarım qabaq baş verə bilərdi. Bizim çıxışlarımızla, Qorbaçova müraciətimizlə hadisələrin belə faciəli inkişafının qarşısı alındı. Fövqəladə vəziyyət yalnız 1990-cı ilin yanvarında, Ali Sovetin tətil dövründə elan olundu. Bu vəziyyətdən xaincəsinə yararlanaraq və deputatlara bildirmədən görünməmiş qəddarlıqla Bakıda fövqəladə vəziyyət tətbiq etdilər (daha doğrusu qoşun yeritdilər).*

*1989-ci ilin oktyabrında xalqımızın Yaşamaq Haqqını qoruya bildik, amma 1990-ın yanvarında bu, mümkün olmadı.*

1990-cı ilin fevralında Qara Yanvardan sonra Ali Sovetin ilk iclası oldu

O gün, sessiyanın tətildən sonrakı ilk günü - mən dörd dəfə çıxış etdim. O çıxışdan məndə yalnız ikisinin videokaseti qalır:

- Bakıda dəhşətli faciə baş verib, - dedim. - Talanlardan sonra Bakıya on min hərbi qulluqçu yeritmək üçün beş gün kifayət elədi. Amma belə məlum olur ki, bu aksiyanı sanksiyalaşdırmaqdan ötrü Ali Sovetin 540 üzvünü bir yerə toplamaq üçün bu müddət bəs deyilmiş. Biz burda oturmuşuq, sakitcə müzakirə edirik, Bakıda isə göz yaşları axır, qan tökülməkdə davam edir. Bu məsələ müzakirə olunacaqmı? Bizim seçicilərin rəyi birmənalıdır: əgər bu məsələyə etinasız yanaşılacaqsa, Ali Sovetin işində iştirak etməyək (zalda səs-küy).

Anar Rzayev:

- Yoldaşlar, burada artıq dedilər ki, Sumqayıt hadisələrinə qiymət vermək lazımdı. Amma, axı, Sumqayıtdan başqa, Ermənistanın Qukarq rayonunda da faciə baş vermişdi. İndi söhbət Bakı yanvarından gedir. Biz məsələni belə qoyuruq: Azərbaycan deputatları, Azərbaycan ictimaiyyəti Bakıda 13-14 yanvar talanlarını sərt şəkildə, qeyd-şərtsiz pisləyir. Əgər bunu müzakirə etmək lazımdırsa, biz bu məsələnin müzakirəsinə və günahkarları ifşa etməyə hazırıq. Amma bununla belə, talanlara adekvat cavab olmayan 19-20 yanvar da müzakirə edilsin və pislənilsin. Talanların günahkarlarını yox - 13 yaşlı uşağı, kor rus insanını "cəzalandırıb" öldürüblər, "təcili yardım"ın həkimini - yəhudini, bir qarını cəzalandırıblar... Doğrudanmı bütün bunlara görə heç kim məsuliyyət daşımır? *(Stenoqramdan)*

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN İLK İCLASINDA SƏDRLİK EDƏN ANARIN MƏCLİSİN AÇILIŞINDA ÇIXIŞI



*Milli Məclisin ilk iclası*

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Müstəqillik dövründə seçilmiş ilk Parlamentimizin ilk iclasını aparmaq şərəfini mənə etimad etdiyiniz üçün hamınıza dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm. Eyni zamanda fürsətdən istifadə edib bütün seçicilərimizə, yeni Azərbaycan xalqına dərin təşəkkürümüzü bildirmək istəyirəm. Xalq bizə inanıb, çalışmalıyıq ki, bu inam qırılmasın. Bizə inanmayanlar da var, çalışaq, onları da inandıraq, inandıraq ki, yeganə məqsədimiz Azərbaycanımızın bu günü və sabahı yolunda çalışmaqdır. Bizim fikirlərimiz müxtəlif ola bilər, əqidələrimiz müxtəlif ola bilər, dünyagörüşümüz, fəlsəfi baxışlarımız müxtəlif ola bilər. Amma bizi birləşdirən amal bizi ayıran cəhətlərdən üstündür. Bu amal isə Azərbaycanı sonsuza qədər müstəqil görmək, Azərbaycan dövlətçiliyini möhkəmləndirmək, Azərbaycanın işğal olunmuş torpaqlarını qaytarmaq, ərazimizin bütövlüyünü təmin etmək, qaçqınlarımızın yurd-yuvalarına qayıtması, iqtisadiyyatımızı düzgün yolla inkişaf etdirmək, ordumuzu güclü etmək, mədəniyyətimizi, maarifimizi yüksəltməkdir.

Və bütün bunlar yalnız demokratiya şəraitində ola bilər. İnqilab bir gün içində baş verə bilər, çevriliş bir gecədə ola bilər.

Amma demokratiya bir gündə, bir gecədə baş verən iş deyil. Xalqların təcrübəsi göstərir ki, cəmiyyət illərlə, bəzən əsrlərlə addım-addım, pillə-pillə, büdrəyə-büdrəyə, yıxılıb dura-dura demokratiya yolu ilə inkişaf edir və bizim yolumuz da bu yoldur.

Pillə-pillə, addım-addım Azərbaycanda demokratiyanı bərqərar etmək yoludur.

Bu gün biz müstəqil dövlətimizi 18-20-ci illərdəki Azərbaycan Demokratik Respublikasının varisi qəbul ediriksə, o dövrün, o respublikanın acı taleyindən də ibrət dərsi götürməliyik. Yeni bizi istəməyən xarici qüvvələr o zaman bu dövləti devirə bildilər ki, onun içində daxili çaxnaşmalar, parlamentində çəkişmələr oldu və xalqın bütövlüyü pozuldu. Bu bizə dərs olmalıdır.

Mən əminəm ki, fikir müxtəlifliyi, demokratiya, plüralizm, çoxsəslilik şəraitdə Azərbaycan parlamenti bütün xalqımıza siyasi mədəniyyəti, siyasi davranışı, bir-birini başa düşmək, dinləmək, mübahisə edərək belə düşmən olmamaq mədəniyyətini təlqin edəcəkdir və Milli Məclisimizin bu əxlaqı, bu davranışı bütün cəmiyyətimizə sirayət edəcəkdir, o cümlədən, mətbuatımıza da. Bu beş il ərzində xalqın gözü qarşısında keçəcək ictimai həyatımız hər kəs üçün layiqli örnək olmalıdır.

Bu böyük və nəcib işdə Uca Tanrı bizə yar olsun.

*24 noyabr 1995*

# SSRİ XALQ DEPUTATLARININ NÖVBƏDƏNKƏNAR V QURULTAYINDA ÇIXIŞ

*(31 avqust 1991)*

Hörmətli deputat yoldaşlar!

Azərbaycan deputat heyətimiz qurultaya əməli təkliflərlə, əməli iş görmək arzusu ilə gəlmişdir. Yoldaşlarımızın çıxışlarından da bunu gördünüz.

Mən də burada tamam başqa təklif və mövzularla çıxış etmək istərdim. Lakin vəziyyət elə gətirdi ki, deputat heyətimiz bəyanat qəbul etməyə məcbur oldu.

Qarabağda qan tökülməsinin məlum ilhamçısı Zori Balayanın bu qurultaydakı çıxışı növbəti fitnəkarlıq olmuşdur. İki xalqın - Azərbaycan və erməni xalqlarının fəlakəti məhz onun qatı millətçi ideologiyasının mayası ilə yoğrulmuşdur. Onun çıxışı göstərir ki, avqust qiyamı hələ qurtarmamışdır. Azərbaycan Respublikasının prezidentinə onun atdığı böhtan da məhz bu ruhdadır. Prezidentin dediyi sözlər təhrif olunmuş və mətndən yarımçıq götürülmüşdür. Yedək maşınlarından, silahdan və sairdən istifadə olunması haqqında bütün iftiralar Rusiya ilə Azərbaycanın arasında nifaq salmaq cəhdindən başqa bir şey deyildir. Belə bir suala cavab verməkdən yaxa qurtarmaq istəyirlər: erməni yaraqlılarının Bağanıs Ayrım kəndini və Azərbaycanın digər kəndlərini yerlə-yeksan etdikləri zəhmli, müasir silah haradan alınmışdır?

Nadir, bəlkə də yeganə imkandan istifadə edərək Ermənistan deputat heyətinə və Gürcüstan deputat heyətinə müraciət etmək istəyirəm: gəlin, keçmişin dərslərini, 1918-20-ci illərin tarixini unutmayaq.

Hamımız müstəqillik istəyirik. Üç Zaqafqaziya respublikası yalnız o zaman müstəqil ola bilər ki, onların arasında sülh və həmrəylik olsun. Bu respublikalardan biri digəri ilə, yaxud ikisi üçüncüsü ilə öcəşəndə isə bizim nə müstəqilliyimiz, nə də azadlığımız olacaqdır. Gəlin bu barədə birlikdə düşünək.

ÇIXIŞLAR

# Anar Türk Dünyası yazıçılarının III Qurultayını açır



*Prezident Heydər Əliyev, Namik Kamal Zeybək*

## TÜRK DÜNYASI YAZIÇILARININ III QURULTAYININ AÇILIŞINDA ÇIXIŞ

Azərbaycan Respublikasının hörmətli prezidenti cənab Heydər Əliyev!

Türk dünyası yazıçılarının III Qurultayının hörmətli iştirakçıları, əziz qonaqlarımız, mətbuat işçiləri!

Türk dünyası yazıçılarının Bakıda keçirilən III qurultayını açmaq şərəfi mənə nəsib olduğu üçün həyəcan və qürur hissi duyuram.

Türk dünyası yazıçılarının ilk Qurultayı 1992-ci ildə Ankara şəhərində oldu və bu qurultayda Türkiyənin o vaxtkı Cümhur Başqanı, rəhmətlik Turqut Özal iştirak və çıxış etdi. İkinci qurultay yenə Ankarada keçirildi və orada Türkiyənin bugünkü Cümhur Başqanı hörmətli Süleyman Dəmirəl iştirak və çıxış etdi.

Çox şadıq ki, hörmətli Prezidentimiz Heydər Əliyev cənabları bizim dəvətimizi qəbul edərək Türk dünyası yazıçılarının Bakıda keçirilən III Qurultayında iştirak edir. Mən xüsusi qeyd etmək istəyirəm ki, bu qurultayın Bakıda keçirilməsinə, Qurultayla əlaqədar başqa tədbirlərin, Böyük Füzulinin 500 illiyinin zirvə tədbirlərinin, TÜRKSOY-un konfransının, beynəlxalq elmi simpoziumun keçirilməsinə ancaq ona görə nail ola bildik ki, cənab Heydər Əliyev bu işlərə böyük maraq, diqqət və qayğı ilə yanaşdı və Azərbaycanın bütün çətinliklərinə baxmayaraq, bu tədbirlərin yüksək səviyyədə keçirilməsi üçün lazımi göstərişlər verdi, köməyini əsirgəmədi.

Bu gün biz Orxon yazılarından üzü bəri ən azı 1500 illik tarixi olan yazı mədəniyyətimizin varisləriyik. Yunus İmrənin və Nəsiminin, Nəvainin və Məhtumqulunun, Mirzə Fətəlinin və Namiq Kamalın, Abdulla Tuqayın və Abayın, Qaşqarlı Mahmudun və Qaspiralı İsmayılın mənəvi varisləriyik. Bu gün biz əsrlərdən keçib gələn müdrik Dədə Qorqud, qoç Koroğlu, cəsur Manas, igid Salavat Yulayev ruhunu yaşadan və təbliğ edən türk dünyasının yazarları, aydınları, ziyalılarıyıq.

Şükür ki, bu gün biz bu bayramı müstəqil türk dövlətləri arasında keçiririk, xoşbəxtik ki, biz bu tədbiri müstəqil Azərbaycanda milli dövlət bayrağımızla, öz Prezidentimizlə birlikdə keçiririk. Bu böyük xoşbəxtliyi bizə tale bəxş eləyib, bu böyük xoşbəxtliyi xalqımızın illər boyu davam edən mübarizələrində qazanmışıq.

Türk dünyası yazıçılarının I və II qurultaylarında bir çox təkliflər irəli sürüldü və bunların böyük bir qismi həyata keçirilməkdədir. Türk xalqlarının UNESKO tipli təşkilatının yaradılması təklifi irəli sürülmüşdü və indi TÜRKSOY fəaliyyət göstərir, "Dədə Qorqud" ensiklopediyasının hazırlanması haqqında təklif irəli sürülmüşdü və indi bu iş, demək olar ki, bitmək üzrədir. Ümüd edirəm ki, III qurultayda irəli sürüləcək təkliflər də həyata keçiriləcək və türk xalqlarının mənəvi-mədəni birliyi daha da möhkəmlənəcəkdir. Bu nəcib işdə Tanrı bizə yar olsun.

İcazənizlə Türk dünyası yazıçılarının Üçüncü qurultayını açıq elan edim.

*6 noyabr 1996*

# İSTANBULDA AZƏRBAYCAN GECƏSİNDƏ ÇIXIŞ

*Sayın Bakan! Sayın Başqan! Dəyərli qonaqlar!*

*Bu gecə Türkiyənin və Azərbaycanın bir-birinə qırılmaz tellərlə bağlandıqlarının daha bir örnəyidir. Türkiyənin Azərbaycan üçün nə demək olduğunu bəlkə sonunacan duymaq imkansızdır. Azərbaycan da, başqa türk məmləkətləri kimi öz istiqlaliyyətini qeyb edəndən sonra Türkiyə Türk dünyasının yeganə baxımsız dövləti tək soydaşlarımız üçün bir qürur və güvənc yeri, bir ümid çırağı, işığı çox uzaqlardan gəlsə də, bizləri isidən bir məşəl idi.*

*Düz yetmiş beş il bundan öncə, 18-ci ilin elə bax bu mart günlərində Bakı kommunası dövründə daşnakların əliylə Bakıda və başqa şəhərlərimizdə, kəndlərimizdə minlərlə məsum, günahsız Azəri türkü vəhşətlə öldürüldü və xalqımız böyük qətlamın, soyqırımının təhlükəsindən türk ordusunun yardımıyla qurtuldu. Sonrakı illərdə qəlbində Türkiyəyə bu minnətdarlıq və sevgi hisslərini yaşatdığı üçün yüz minlərlə azəri qurşuna düzüldü, güllələndi, həbsxanalara atıldı, Sibiryaya sürgün olundu, mənəvi təqiblərə və təzyiqlərə məruz qaldı.*

*...Bu gün hörmətli dostumuz Oqtay Ağbalın - Ağabalanın əcdadlarının şəhəri gözəllər gözəli Şuşamız düşmən əlindədir.*

*Mən bura - qan tökülən, matəm, yas içində inləyən, həqiqətlərini dünyaya duyura bilməyən, yaxud dünya bu həqiqətlərini qəbul etmək istəmədiyi bir ölkədən, torpaqları zəbt olunmuş, amma yenilməmiş və heç bir zaman yenilməyəcək bir məmləkətdən gəlmişəm. Bu məmləkətin bu günü facıəlidir, amma bu məmləkətin böyuk keçmişi var və buna inanıram, böyük gələcəyi var. Bu gələcək keçmişə də daha ədalətli və gerçəkçi qiymət verəcəkdir, sanıram.*

*Totalitar rejimin 70 ilində çox şeylər itirdik, amma çox şeylər də qazandıq. XX əsrdə Azərbaycan mədəniyyəti bəlkə də tarixdə çox az örnəyi olan bir əməliyyata məruz qaldı - 60 il ərzində əlifbamız üç dəfə dəyişdirildi və hər belə dəyişiklik keçmişlə indini birləşdirən körpüləri yandırmaq deməkdi. Amma körpülər yandırılsa da Dünənlə Bu günü bağlayan ip qırılmadı, bu ipin ucundan tutub ədəbiyyatımızı, sənətimizi, dilimizi uçurumdan dartıb çıxardıq, yaşatdıq. Azəri türklüyumüzü dandılar, tariximizi tərs yozdular, dilimiz basqılar altında qaldı, dözdük, çünki düzdük. Qaldıq və qalxdıq, çünki xalqdıq.*

*Yetmiş ildə Azərbaycan xalqı çox zülmlər çəkdi, amma elə bu yetmiş ilin içində bir çox Doğu və Batı ölkələrinə örnək ola biləcək şeir və nəsr, musiqi, rəssamlıq, heykəltəraşlıq, memarlıq əsərləri yaratdı. Zülmə qarşı dirənərək, müqavimət göstərərək yaratdı, keçmişini yaşatmaq və gələcəyinə yol açmaq üçün yaratdı. Nə keçmişimizə xəyanət etdik, nə gələcəyimizə. Ədəbiyyatımız, sənətimiz əski sovetlər Birliyinin ən sayılan mədəniyyət sahələrindən biri oldu, Xalqlararası Sinema festivallarında mükafatlar aldıq, vokal və piano ifaçılarımız Beynəlxalq yarışlarda zəfərlər qazandılar, çağdaş musiqimiz dünyanın məşhur dirijorlarının təfsirində Avropanın, Amerikanın, Moskvanın, Leninqradın-Peterburqun konsert salonlarında alqışlandı.*

*Nə yazıq ki, Türkiyədə bu qabaqcıl Azərbaycan sənətini, yumşaq desək, yetərincə tanımırlar, bir az sərt desək az tanıyırlar və daha da sərt desək, heç tanımırlar. Hətta bəzi çevrələr Azərbaycan kültürünə yuxarıdan-aşağı baxır, Azərbaycanı bir "Məşədilər məmləkəti" kimi düşünürlər. Amma Azərbaycan Məşədi İbadlar məmləkəti deyil, "Məşədi İbad"ı yaradan dahi Üzeyir bəylər məmləkətidir.*

*Eyni kökdən olan, eyni milli qaynaqlardan qidalanan, eyni ruhdan doğulan bu iki mədəniyyətin qaynayıb-qarışması mənəvi həyatımıza yeni rənglər, çalarlar gətirər və XXI əsrin Böyük ortaq Türk sənətinin inkişafına yol açar.*

*Bilirəm ki, ortaq türk mədəniyyətindən bəhs edəndə Türkiyənin müəyyən çevrələrində bunu irqçilik, turançılıq, macarçılıq kimi anlar və bundan qorxarlar. Məncə bu cahillikdən doğan bir xofdur. Bir zamanlar "Qobustan" adlı sənət toplusunda redaktor olduğum vaxt "çağdaş", "ayrıntı", "duyum" və bir neçə bu cür yeni sözlər işlətdiyimizə görə məni pantürkizmdə suçlayırdılar. Elə o zamanlar əlimə keçən bəzi Türkiyə dərgilərində oxudum ki, bu tipli yeni sözlərin Türkiyə türkcəsinə girməsini Moskvanın barmağı və kommunist təsiriylə bağlayırlar. Onda başa düşdüm ki, çox şeyimiz ortaq olduğu kimi abdallarımız da ortaqdır.*

*Mayısın sonuna qədər burada, İstanbulda olacam. Memar Sinan Universitetində Azərbaycan ədəbiyyatından dərs deməyimlə öyünsəm də, buradakı ən böyük görəvimi, vəzifəmi, işimi klassik və çağdaş Azərbaycan mədəniyyətini Türkiyədə daha geniş tanıtmaqda görürəm. Bu yolda əlimdən gələni edəcəm və Sizin hamınızın da yardımlarına, dəstəyinizə ehtiyacım var. Bu işdə yardımlarınızı əsirgəməyəcəyinizə inanır və diqqətinizə görə təşəkkür edirəm.*

*1993 mart*

# Türkiyə Yazarlar Sindikasının VIII Qurultayında çıxış




*İstanbulda Qurultayda çıxışı*

*Sayın Başqan! Əziz qardaşlarım!*

*Azərbaycan Yazıçılar Birliyi adından Turkiyə Yazarlarının VIII Qurultayını salamlamağın, təbrik etmənin şərəfini duyuram. Ayrıca sizləri qarşıdakı bayramlarla təbrik edirəm. "Bayramlarla" - deyirəm, çünki bu günlər Ramazan bayramıyla bərabər Azərbaycan xalqının əskilərdən bəri sevinclə keçirdiyi Novruz bayramını qeyd edirik. Amma bu il Novruzu xalqımız acılar və göz yaşları içində keçirir. Yurdumuzda savaş gedir, torpağımıza qəsd olunub, təcavüz davam edir. Biz Novruzu göz yaşları arasında gülümsəyərək keçiririk, çünki Novruz elə bir bayramdır ki, ayrı-ayrı insanlar da, bütöv xalq da bu gün bir azacıq dərdlərini-acılarını unutmağa çalışır, bir təsəlli, bir umid arayır. Biz də dincliyə və barışa ümidlə yaşayırıq. Biz barış istəyirik, amma bu barış ləyaqətimizi, onurumuzu, şərəfimizi qırmayacaq bir barış olmalıdır. Torpağımızın bölünməzliyi, sərhədlərimizin toxunulmazlığı, ölkəmizdə yaşayan bütün milli azlıqların insani hüquqlarının təmin olunması bu barışın şərtləridir. Biz belə bir barışa inanırıq, ümid edirik. Bu ümid bu gün ağır, soyuq qışdan sonra qan və göz yaşlarıyla çilənmiş Azərbaycan çöllərində qarların altından baş qaldıran fidanlar kimidir - novruzgülü, nərgiz, bənövşə kimidir. O bənövşə ki, ona XVI əsrin böyük azəri şairi Qurbani ölümsüz misralar həsr edib:*

*Qurbani der: gönlüm bundan sayrudur,*
*Nə etmişəm, yarım məndən ayrıdur,*
*Ayrılıqmı çəkib boynu əyridir,*
*Heç yerdə görmədim düz mənekşəni.*

*Mən bu bəndi yalnız iki hərfi dəyişərək oxudum: Siz "mənekşə" deyirsiz, biz "bənövşə". Eyni kökdən, eyni qaynaqdan olan dillərimiz arasında XVI əsrdə də, ondan əvvəl və sonra da çox az fərq olub. Amma son iki əsrdə bu fərq artıb və yenə başqa bir şeir misraları yada düşür ki, "mən səndən ayrılmazdım, zülmnən ayırdılar". Uzun illər bizi bir-birimizdən ayırmağa, aralamağa çalışdılar, amma bu gün dillərimiz fərqlənsə də, müstəqil Türkiyə türkcəsi və müstəqil Azəri türkcəsi olsa da, ruhumuz birdir, mənəviyyatımız birdir və bu ruh birliyinin, qəlb birliyinin qorunub saxlanmasında ədəbiyyatın, sənətin yeri çox önəmlidir. Sərhədləri, divarları, çəpərləri hökumətlər, dövlətlər, rejimlər qurur, sənətçilər yıxıb dağıdırlar.*

*Azərbaycan Yazıçıları adından Sizləri bir daha salamlayır və Qurultaydakı çalışmalarınızda, ədəbi yaradıcılığınızda hamınıza böyük başarılar, uğurlar diləyirəm.*

*1993 mart*

# ÇIXIŞLAR

## Şimali Kipr Türk Respublikasında keçirilən konfransda çıxış

Əziz dostlarım! Türk dünyasının ayrılmaz parçası olan Quzey Kiprin bu cənnət guşəsində keçirdiyimiz konfransa dəvət olunduğuma körə sizlərə təşəkkür edir və bu toplantının başarılı olmasına görə hamınızı təbrik edirəm. Düz yetmiş beş il bundan öncə İslam və Türk dünyasında ilk Cümhuriyyət Azərbaycanda yarandı və nə yazıq ki, bu gün - baxımsızlığımızı yenidən bərpa etdiyimiz bu günlərdə bir gözümüz gülür, bir gözümüz ağlayır. Azərbaycan torpağına azğın təcavüz davam edir və bizə acı çəkdirən bir də odur ki, bu azğın saldırı bütün dünyanın gözləri qarşısında baş verir. Dünya da, dostlarımız da bu olaylara seyrci münasibət bəsləyirlər. Bizdə belə bir söz var: yağmasan da gurulda. Nə yazıq ki, dostlarımız nə yağır, nə də heç olmasa guruldayırlar. Amma seyrci münasibətin seyrcilərin özlərinin başlarına nə oyunlar açdığını tarixdən yaxşı bilirik. 1938-ci ildə Münihdə İngiltərənin Baş Bakanı Çemberlen və Fransanın Baş Bakanı Daladye Çexoslovakiyanın təklənməsinə biganə qaldılar, kiçik bir xalqın müsibətinə nəinki seyrci münasibət bəslədilər, həm də müdafiəsiz ölkəni Hitlerin quduz iştahına qurban verdilər.

Amma az sonra bunun nə bahasına başa gəldiyini də gördülər. Hitlerin əsgərləri Parisin küçələriylə addımladılar və alman təyyarələri ingilis şəhərlərinin üstünə bombalar yağdırdılar. Mənə tarixi xatırladıb, "amma hər halda ikinci dünya hərbi Berlində, Almaniyanın tar-mar olmasıyla bitdi" - deyə bilərsiniz. "Doğrudur, fəqət bunun yolunda 60 milyon insan öz həyatlarını qayb etdi" - qarşılığını da verə bilərəm. Biz də bu gün torpağımıza təcavüz edən düşmənin məğlub olacağına, bizim döyüşlərdən zəfərlə çıxacağımıza, savaşı qazanacağımıza inanırıq, amma dünyanın və dostlarımızın seyrci mövqeyi bu qələbənin minlərlə, on minlərlə insanın həyatı bahasına başa gəlməsinə səbəb ola bilər.

İstər-istəməz siyasi məsələlərə toxunsam da və konfransımızın adında siyasət sözü olsa da, bir yazar kimi daha çox kültür məsələləri üzərində dayanmaq istərdim. Bu mövzuların da ən vacib olanı dil məsələsidir.

Dil sahəsində yaxınlaşmağımız bugünkü gerçəkliklərə göz yummaqla təsbit edilə bilməz. Müstəqil ədəbi dil olan azəri türkcəsinə ləhcə deyəndə bu bizə, hər halda şəxsən mənə toxunur. Dəfələrlə dediyim kimi, ləhcəylə evdə, küçədə, bazarda danışmaq olar, ədəbi dil ləhcə deyil. Məsələn, heç kəs Ukrayna, bolqar, polonya, çex, ya serb dillərinə slav dilinin ləhcələri demir, bunları müstəqil dil sayır, niyə slav dilləri qədər bir-birindən fərqlənən Azərbaycan, qazax, qırğız, özbək, tatar və başqa dillər müstəqil dil deyil, ləhcə sayılmalıdır?

Bizdə, azərilərdə, belə bir misal var: Soruşurlar: - Qardaşın necə adamdır? Cavab verir: - Bilmirəm, yoldaş olmamışam. Biz də qardaşıq, amma hələ yoldaş olmamışıq. Qardaşlığımız doğadandır, təbiətdəndir, Allahdandır. Yoldaşlığımız, yəni bir-birimizə yaxından bələd olmağımız isə özümüzdən, öz iradəmizdən, səyimizdən, qeyrətimizdən asılıdır. Gəlin aydınların, ziyalıların, elm və sənət adamlarının omuzuna düşən bu görəvi, vəzifəni şərəflə yerinə yetirək.

*28 may 1993*

*1994-cü il aprelin 20-də Vaşinqtonda "Vaşinqton tayms" və Beynəlxalq mədəniyyət fondunun təşkil etdiyi "Yeni dünya ədəbiyyatının axtarış yolları və Asiya ədəbiyyatlarının perspektivləri" mövzusunda keçirilən konfransın açılışında Konfransın sədri, ABŞ professoru Riçard Rubinşteyn, 1992-ci ilin Ədəbiyyat üzrə Nobel mükafatı laureatı Derek Uilkot, konfransın təşkilatçısı Amerikada yaşayan koreyalı Son Myonq Mun və Anar çıxış etmişlər.*

*Konfransda bizim birinci uğurumuz onun açılışında Anarın çıxış etməsi oldu. Sevinirdik ki, 60 ölkədən 300 nümayəndənin iştirak etdiyi forumda Azərbaycan nümayəndəsi toplantı başlanan kimi, ikinci olaraq çıxış etdi. Özünə xas olan təmkinlə Anar dünya yazıçılarını narahat edən məsələrdən danışdı, iştirakçılara Azərbaycandakı vəziyyət haqqında məlumat verdi.*

***Flora XƏLİLZADƏ***
***"Azərbaycan" qəzeti 11 may 1997***
***( 10 aprel 2006, Çeşmə)***

## KONFRANSDA ANARIN ÇIXIŞI

***Hörmətli sədr! Hörmətli xanımlar və cənablar!***

***Azərbaycan Parlamanının üzvü və Azərbaycan Yazıçılar Birliyinin sədri olaraq mən Parlamanımız və Azərbaycan yazıçıları adından, ədəbi ictimaiyyətimiz adından hamınızı salamlayıram.***

***1991-ci ildə biz keçmiş SSRİ-nin başqa respublikaları kimi dövlət müstəqilliyimizi qazandıq. Postsovet məkanının bütün ölkələri kimi Azərbaycan da bir sıra çox ciddi ictimai və siyasi problemlərlə üzləşdi. Faktik olaraq Sovet imperiyasının əyaləti statusundan müstəqil dövlət statusuna keçmək - bu problemlərdən biridir. İkinci problem - totalitar sovet sistemindən demokratik və plüralistik cəmiyyət qurmaq yoluna keçid məsələsidir. Sosialist plan təsərrüfatından - bazar iqtisadiyyatına keçmək - üçüncü problemdir. Çox qısa bir tarixi dövrdə biz elə çətin problemlərlə qarşılaşdıq ki, başqa xalqlar bu məsələləri on illər, bəzən yüz illər ərzində həll edirlər. Amma bizim vəziyyətin analoji problemlərlə üzləşən başqa keçmiş sovet respublikalarından fərqimiz ondadır ki, Azərbaycan bu ağır problemləri müharibə şəraitində həll etməyə məcburdur. Ərazimizin 20 faizi Ermənistan tərəfindən işğal olunub - 7 milyon əhalisi olan ölkəmizdə dədə-baba yurdları Ermənistandan, Dağlıq Qarabağdan və ətraf rayonlardan qovulmuş 1 milyondan artıq qaçqınımız və köçkünümüz var.***

***Azərbaycanlılar və ermənilər başqa dillərdə danışırlar, amma döyüşlərdə o tərəfdən də, bu tərəfdən də həlak olanların anaları eyni dildə ağlayırlar. Biz gələcək nəsillərə - övladlarımıza, nəvələrimizə, yeni minillikdə yaşayacaq insanlara düşmənçiliyə və nifrəti miras qoya bilmərik, onları anlamaq, ədalət və həmdərdlik ruhunda tərbiyə etməliyik.***

***Məhz bu duyğular bizim klassik yazıçıların da, çağdaş sənətkarların da əsərlərinin ana xəttidir.***

***Bu forumda da məhz bu duyğularla iştirak edirik. Axı bu forum azadlıq, milli ləyaqət və ədalət dəyərlərini həmişə hər şeydən uca tutan bir dövlətin paytaxtında keçirilir. Konfransa uğurlar diləyirəm.***

*24 aprel 1997*



*Amerikalı konqresmen, səfirimiz Hafiz Paşayev və səfirliyin əməkdaşı Aqşin Mehdiyevlə*

# STRASBURQDA AVROPA İTTİFAQI PARLAMIN ASSAMBLEYASININ SİYASİ MƏSƏLƏR ÜZRƏ KOMİTƏSİNİN İCLASINDA ÇIXIŞ

Hörmətli sədr! Avropa Parlamınının hörmətli deputatları! Bakıdan Strasburqa neçə min kilometri qət edib gələrkən ümid etmirdik ki, bizə ayrılmış bir neçə dəqiqə ərzində Dağlıq Qarabağ mücadiləsiylə bağlı hadisələrin tarixini gedişatını bütün təfərrüatıyla izah edə biləcəyik. Hörmətli deputatlardan bəzilərinin konfliktin qaynaqları və səbəbləri haqqında, yəni Ermənistanın Azərbaycana ərazi iddiaları haqqında məlumatları var. Onu da bilməlisiniz ki, Azərbaycan bir qarış da Ermənistan torpağını zəbt etməyib, Ermənistanda qaçqınların bir dənə olsun çadır şəhərciyi yoxdur. Amma məhz Ermənistan Azərbaycan torpaqlarının 20 faizini işğal edib və bunun nəticəsində hər yeddi azərbaycanlıdan biri acı qaçqın, köçkün taleyini yaşayır. Bir çox Avropa parlamentariləri, siyasi xadimləri və jurnalistləri öz gözləriylə çadır şəhərciklərindəki dözülməz vəziyyəti görüblər. Hələ bu azmış kimi kimlərsə bizi təqsirləndirməyə cəhd edir. Mənə elə gəlir ki, belə yüksək Avropa forumu ikili stanlarlarla davranmamalıdır, təbliğat baxımından daha güclü və imkanlı tərəfin iftiralarını həqiqət kimi qəbul edərək nəticə çıxarmamalıdır. Belə yanlış iddialardan biri bu konflikti dini səbəblərlə bağlamaqdır, halbuki bir tərəfin başqa tərəfə ərazi iddialarının heç bir dini zəmini yoxdur. Və nahaq yerə Siyasi Komitənin üzvü hörmətli Davud Atkinson bu məsələni belə qələmə verməyə çalışır. Bunun tam əksini sübut etmək üçün uzağa getmək lazım deyil. Uzun əsrlər boyu Qafqazda iki müxtəlif dinə tapınan iki xalq xristian Gürcüstan və müsəlman Azərbaycan dinc, dava-şavasız yaşayırlar. Dünya cameəsi tərəfindən qəbul olunmuş prinsipə - ölkələrin ərazi bütövlüyü prinsipinə qarşı millətlərin öz müqəddəratını təyin etmək prisipini qoyanlara xatırlatmaq istəyirəm ki, Qərbin bir sıra sivil ölkələrində də bu iki prinsip bəzən bir-biriylə tərs düşür və bunun səbəbi heç də dini fərqlər deyil. İspaniyada Basklar ölkəsini, Fransada Korsikanı, Böyük Britaniyada Olsteri, Kanadada Kvebeki xatırlamaq kifayətdir. Və heç yerdə Fransanın, İspaniyanın, Böyük Britaniyanın yaxud Kanadanın ərazi bütövlüyü məsələsi qaldırılmır. Bunun müzakirə mövzusu olmasını xatırlamıram. Onda ki, güc tətbiqiylə işğal edilməsi... Əgər biz ikili standartlarla hərəkət etmək istəmiriksə Azərbaycana da bu cür rəftar tətbiq olunmalıdır.

Diqqətinizə görə təşəkkür edirəm.

**P.S.** *Milli Məclisin deputatlarına Strasburqa səfər haqqında məlumat verərkən spiker Murtuz Ələsgərov dedi: Siyasi Komitənin ermənipərəst üzvü David Atkinson növbəti dəfə Qarabağ konfliktini dini toqquşma kimi qələmə verməyə çalışdı. Anar Rzayev ona kəskin cavab verdi, azərbaycanlıların öz dədə-baba torpaqlarından qovulmasından danışdı.*



*Murtuz Ələsgərovla*

*25 may 1999*
*"Azərbaycan" qəzeti.*
*1-2 iyun 1999*

# "ÖLKƏLƏR ARASINDA SƏRHƏDLƏRİ DÖVLƏTLƏR UCALDIR, MƏDƏNİYYƏT İSƏ BU SƏRHƏDLƏRİ YIXIB DAĞIDIR"

Hörmətli forum iştirakçıları, xanımlar və cənablar! Birgə yaşadığımız ötən illərin sevinc və kədər yoldaşları!

Postsovet məkanından söz düşərkən mən başqa bir məkan - bizim ümumi keçmişimizin məkanı haqqında da düşünürəm. Bu keçmişdə müsibətlər, faciəvi hadisələr, ağrı-acılar, inciklikler az olmayıb. Bu keçmişdə 37-ci il, Böyük Vətən müharibəsi, 90-cı il Bakının Qara yanvarı və Xocalı soyqırımı var. Amma axı bu keçmişdə işıqlı günlər də olub və onlar ilk növbədə bizim mədəni ünsiyyətimizlə bağlıdır.

Mən dəfələrlə demişəm ki, ölkələr arasında sərhədləri dövlətlər ucaldır, mədəniyyət isə bu sərhədləri yıxıb dağıdır. Rusiyayla Azərbaycanın iki əsrdən artıq ümumi tarixinə nəzər salanda ağrılı-acılı hadisələrlə, qəddarlıq və zülmlə yanaşı, xoş məqamlar da yada düşür və belə məqamlar qarşılıqlı ədəbi, mədəni əlaqələrimizlə bağlıdır.

Qafqazın, o cümlədən Azərbaycanın obrazları rus ədəbiyyatını - şeirini, nəsrini, rus musiqisini, təsviri sənətini zənginləşdirmişdir, Rusiya Azər-baycanı yalnız böyük rus mədəniyyətinə deyil, Avropa mədəniyyətinə də qovuşdurdu. Məhz buna görə Azərbaycan Şərqdə çağdaş sivilizasiyanın forpostuna çevrildi. Əgər qonşu məmləkət hərbi forpostdursa, Azərbaycan rus və Qərb mədəniyyətinin Şərqdə forpostudur.

Biz uğurlarımızla fəxr edirik, amma problemlərimizi də gizlətmirik. Xalqımızın ən böyük, ən ağrılı problemi Dağlıq Qarabağ problemidir. Burada Rusiya ictimaiyyətinin qaymağı toplaşıb. Sizdən bircə şey xahiş edirik - bizi anlamağı. Bizim problemlərimizi və ilk növbədə Qarabağ problemini başa düşmənizi. Biz rəqiblərimiz kimi informasiya, daha doğrusu dezinformasiya imkanlara malik deyilik.

Bizim forumun keçirildiyi bu gözəl salon Muğam Mərkəzidir. Muğam Azərbaycan musiqi mədəniyyətinin böyük sərvətidir. Muğamın beşiyi Şuşa şəhəridir - Azərbaycan Qarabağ xanlığının paytaxtı Şuşa. Musiqi və poeziya şəhəri olan Şuşa bu gün işğalçıların tapdağı altında xarabələr və kabuslar şəhərinə çevrilib.

Qarabağ məsələsinin həlli yolunda illərdir ki, bitib-tükənməyən və nəticəsiz - danışıqlar aparılır. Bizə güzəştə getmək təklif olunur. Biz daha hansı güzəştlərə getməliyik? 1918-ci ildə əhalisinin yarıdan çoxu azərbaycanlılardan ibarət olan İrəvan şəhərini ermənilərə güzəştə getdik. Azərbaycanlıların əzəldən bəri yaşadıqları böyük əraziləri Ermənistana güzəştə getdik. Keçən əsrdə bu ərazilərdə yarım milyon azərbaycanlı yaşayırdı, indi bir nəfər də qalmayıb. İndi biz daha hansı güzəştlərə getməliyik? Torpaqlarımızın 10 faizindən əl çəkməliyik ki, 10 faizini qaytaraq? Azərbaycan heç vaxt ərazi bütövlüyünün zədələnməsiylə barışmayacaq.

Biz istərdik ki, Siz Azərbaycandan ən xoş təəssüratlarla ayrılasınız. İstərdik ki, yaddaşınızda xalqımızın qonaqpərvərliyi, ürək açıqlığı qalsın, mədəniyyətmiz və mətbəximiz qalsın, amma həm də dərd-bəlalarımız, inciklikləriniz qalsın. Diqqətinizə görə təşəkkür edirəm.



**Bakıda Humanitar Əməkdaşlıq üzrə**
**I Azərbaycan-Ruiya Forumunun açılışında çıxış.**
**22 yanvar 2010**

ÇIXIŞLAR

# CENEVRƏDƏ PARLAMENTLƏRARASI BİRLİYİN III ASSAMBLEYASINDA ÇIXIŞ

*Oktyabrın 28-dən noyabrın 1-cən İsveçrənin Cenevrə şəhərində dünya Parlamentlərarası Birliyinin 111-ci assambleyası keçirilmişdir. Assambleyanın işində Azəprbaycan Milli Məclisinin deputatları Anar, Gülçöhrə Məmmədova, Zəlimxan Yaqub, nümayəndə heyətinin katibi Hamlet Qocayev iştirak etmişlər. Nümayəndə heyəti Birliyin sədri Serjo Payeslə, Baş katibi A. Consonla görüşlər keçirmiş, Azərbaycanın tarixi, çağdaş durumu, əsasən də Dağlıq Qarabağ münaqişəsi və qaçqınlar, köçkünlər problemiylə əlaqədar ətraflı məlumat vermişlər. Assasmbleyanın Komitələrinin iclaslarında Anar və Gülçöhrə Məmməlova çıxış etmişlər. Nümayəndə heyətinin rəhbəri Anarın ekologiya məsələləri müzakirə olunan Kormitədə çıxışının əlliyə yaxın nüsxəsi rus və ingilis dillərində müxtəlif ölkələrin nümayəndələrinə paylanmışdır.*

***Hörmətli Sədr, hörmətli həmkarlar!***

***Kənd adətən - təbiət qoynunda olur - ətrafında bağlar, meşələr, çöllər... Bizim qlobal texnoloji tərəqqi dövründə isə təbiətin özü təhlükə qarşısındadır. Və əgər ekoloji dramlar və faciələr insanlığın texniki və məişət rahatlığı içində yaşamasının bədəlidirsə, müharibələrin, dövlələtlərarası və etnik konfliktlərin təbiətə vurduğu ziyan bəşər şüurunun inkişaf məntiqinə tamamilə ziddir.***

***Mən bu toplantımızın mövzusuyla əlaqədar olaraq Qarabağın tarixindən, həm Dağlıq, həm Aran Qarabağın- əsrlər boyu qədim Azərbaycan torpağı olmasından danışmayacam.***

***Bu barədə çıxışımın nümayəndələrə paylanmış tam mətnində faktlar yetərincədir.***

***Mən burda yalnız iki məsələni nəzərinizə çatdıracam. Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal edib. Ermənistandan və işğal altında olan Azərbaycan rayonlarından qəddarlıqla çıxarılmış qaçqınların sayı bir milyona çatır, yəni 8 milyon əhalisi olan ölkəmizin hər səkkizdən bir sakini qaçqın və məcburi köçkündür.***

***Mən toplantımızın mövzusuyla bağlı olaraq Sizə yalnız vətənimə qarşı ekoloji aqressiyadan danışmaq istəyirəm.***

***Erməni təcavüzü nəticəsində 150 min hektar meşə sahəsi - "ölkənin ciyərləri" - işğal altındadır. Bu meşələrin bir hissəsi hərbi əməliyyatlar nəticəsində məhv edilmiş, bir hissəsi Ermənistanın mebel fabriklərinin tələbatını ödəmək üçün yaxud da xarici şirkətlərlə bağlanmış müqavilələr əsasında qırılır. 150 unikal-relikt ağacların əksəriyyəti məhv edilib.***

***İşğal olunmuş Zəngilan rayonundakı qoruq 1200-1500 yaşlı təbii çinarlarla zəngin idi. Bu baxımdan o Avropada birinci və dünyada ikinci qoruq kimi tanınırdı. Uzun əsrlərdən bəri hər bəladən hifz olunmuş bu min yaşlı nadir ağaclar bu gün məhv edilib.***

***Fauna aləminə də sağalmaz yaralar vurulub. "Qırmızı kitaba" salınmış bir sıra nadir heyvanlar, quşlar tamamilə qırılıb qurtarmaqdadır. İki işğal olunmuş rayonumuzdakı göllər Medzamorda Ermənistan Atom Elektrostansiyasının nüvə tullantılarının zibilliyinə çevrilib. Cənubi Qafqazın ən böyük çaylarından olan Araza və onun Oxçuçay qoluna da nüvə qalıntıları axıdılmaqdadır. Bu tullantıların, qalıqların başqa bir hissəsi işğal olunmuş Azərbaycan rayonlarında torpağa basdırılır.***

***İşğal olunmuş zəngin Qarabağ torpaqlarının tərkibində qızıl və başqa qiymətli metallar qarət edilir. Bütöv kəndlər xaraba qoyulur, dağılmış evlərin daşlarından inşaat məqsədləri üçün istifadə edilir, sanki başqa bir qədim deyimi də büsbütün unudublar : - Özgə evinin xərabələri üzərində öz evini tikmək cinayətdir.***

***Bu "yandırılmış torpaq" taktikası yalnız iqtisadi və qisasçılıq xarakteri daşımır(Məlum deyil nəyin qisasını almaq istəyirlər. Azərbaycan bir qarış Ermənistan torpağını işğal etməyib). Bu taktika başqa bir məqsədə də xidmət edir. Bütün dünyaya bəyan etmək istəyirlər ki, bu torpaqlarda nə insan olub, nə tarix, nə evlər, nə ağaclar, hətta nə də quşlar, balıqlar... Və bir başqa məqsəd də var: yaxşı bilirlər ki, Azərbaycan mütləq öz torpaqlarını azad edəcək, - deməli bu yerləri elə bir hala salmaq lazımdır ki, insanlar uzun zaman burada normal yaşaya bilməsin.***

***Çıxışımın sonunda, mənə verilən bu imkandan istifadə edərək, hörmətli Sədr sizə və Komitə üzvləri, hörmətli həmkarlarıma müraciət etmək istəyirəm ki, bu faciəvi ekoloji duruma biganə qalmayasınız. Ermənistandan tələb edəsiniz ki, beynəlxalq öhdəliklərə əməl etsin, Azərbaycan ərazilərindən işğalçı silahlı qüvvələrini qeydsiz-şərtsiz çıxarması haqqında BMT-nin dörd qətnaməsinə əməl etsin. Diqqətinizə görə təşəkkür edirəm.***




*Gülçöhrə Məmmədova, Zəlimxan Yaqub, Hamlet Qocayevla*

# Şuşada Vaqif Poeziya Günlərində çıxış

*Hörmətli Prezident!*

*Hörmətli Mehriban xanım.*

*Hörmətli tədbir iştirakçıları.*

***Unudulmaz Ulu Öndərin ucaltdığı və vandalların uçurduğu bu Vaqif məqbərəsi bu gün əvvəlki əzəməti ilə dirçəlib. Buna, Vaqif Poeziya Günlərinin bərpasına, cənab Prezident və Mehriban xanım, şəxsən bu tədbirdə iştirak etdiyinizə görə mən bütün Azərbaycan yazıçıları adından Sizə dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm.***

***Mən ilk dəfə Şuşaya 1952-ci ildə gəlmişəm. O zaman mənim 14 yaşım var idi. Şəhərdə bircə abidə var idi - Sovet İttifaqı Qəhrəmanı Nelson Stepanyanın abidəsi. İndi bədnam adı tarixdə qalmış bu vilayətin erməni başçıları bu qədim Azərbaycan şəhərini erməni şəhərinə çevirmək istəyirdilər. Burada Azərbaycan abidələri yox idi. Qədimdən var idi, amma yenilər yox idi. Ulu Öndərin vaxtında burada muzeylər açıldı - Üzeyir Hacıbəylinin, Bülbülün muzeyləri, Natəvanın, Üzeyir bəyin, Bülbülün heykəlləri qoyuldu. Nəhayət, bu əzəmətli məqbərənin əsası qoyuldu və bu məqbərə açıldı. 1982-ci il yanvarın 14-də həmin o tədbirdə mən də iştirak edirdim.***

***Bu gün mənim ürəyim doludur, çox şey deyə bilərəm, amma dedilər ki, qısa danışmaq lazımdır, ona görə də mən qısa danışacağam. Mən 2011-ci ildə bir mərasimdə çıxış edəndə, - cənab Prezident də iştirak edirdi orada, - dedim ki, mənim 72 yaşım var, amma söz verirəm ki, Sizinlə bir yerdə Şuşaya gedəcəyik və bu, baş verdi. Mən Allaha təşəkkür edirəm, taleyimə minnətdaram və Sizə minnətdaram. Sizə minnətdaram ki, o sözü desəm də, bir də Şuşanı görəcəyimə inanmırdım, amma bu gün mən burdayamsa, Sizə minnətdaram, bizim müzəffər ordumuza minnətdaram. Siz bizə, Azərbaycan xalqına onun milli qürurunu qaytardınız. Bizim hamının qarşısında alnımız açıq, başımız dikdir ki, öz torpaqlarımızı qaytardıq. Bu torpaqlar bizə əzizdir. Amma indi şəhidlərin, qazilərin qanı, şəhid ailələrinin göz yaşları, Mehriban xanımın şəhid ailələri ilə görüşlərində axıtdığı göz yaşları ilə suvarılmış bu torpaqlar bizə ikiqat əzizdir, ikiqat doğmadır.***

***Şuşa Azərbaycandır! Qarabağ Azərbaycandır! Azərbaycan əbədidir! Biz buraya Zəfər yolu ilə gəldik. Bu yolun əvvəli var, amma sonu yoxdur. Bu yol uzandıqca uzanacaq. Bu Zəfər yolu Azərbaycanın hərbi gücünün yoludur, siyasi gücünün yoludur, iqtisadi gücünün yoludur və möhtəşəm Azərbaycan mədəniyyətinin, Azərbaycan ədəbiyyatının Zəfər yoludur!***

***Təşəkkür edirəm.***



*Anar azad Şuşada*